**Mirzə M.** **İ**ki pilotun həyat hekayəsi : Vətən müharibəsinin ilk şəhidləri // Respublika. - 2024. - 2 oktyabr. - **№ 215**. - S. 7.

*Vətən müharibəsinin ilk şəhidləri*

**Onları siz də tanıyın. Haqqında söhbət açacağım igid qəhrəmanlarımız 2020-ci il sentyabrın 27-də başlayan Vətən müharibəsinin ilk şəhidləridir. Abbas Rza oğlu Qasımov və Xalid Həsən oğlu Gözəlov. Dünyaya göz açdıqları yurd yerləri fərqli olsa da, Vətənin azadlığı, suverenliyi, bütövlüyü üçün canlarından birgə keçiblər. İki can yoldaşı, iki silahdaş. Elə çox vaxt mavi səmalara da birgə uçarmışlar.**

Abbas Rza oğlu Qasımov 1986-cı il martın 17-də Zəngibasar (Masis) rayonunun Rəhimabad kəndində anadan olub. 1988-ci ilin noyabr ayında ailəsi ilə birgə ermənilər tərəfindən doğma yurdundan deportasiya ediləndən sonra Bakının Binəqədi rayonunda məskunlaşıblar. 6 yaşında ikən atasını itirsə də balaca Abbas çətin günlərə sinə gərərək, yaşıdlarından geri qalmayıb. 1993-2003-cü illərdə Binəqədi rayonunda F.İsgəndərov adına 157 nömrəli tam orta məktəbdə oxuyub. 2003-2007-ci illərdə isə MTN-nin Heydər Əliyev adına Akademiyasında ali təhsil alıb. 2007-ci ildə Akademiyanı bitirən Abbas sərhədlərin mühafizəsi bölüyünə göndərilib və bir neçə rayonda sərhəddə xidmət edib. Xidməti dövründə daim fərqlənib, medal və təltiflərlə mükafatlandırılıb. Hər zaman pilot olmağı arzulayan Abbasa yeni bir yol açılır, o, Milli Aviasiya Akademiyasına daxil olur. 2017-ci ildə mayor rütbəsi alır.

Həmişə Zəngəzur həsrətini dilə gətirərək deyərmiş ki, "Bunu heç vaxt unutma, əgər bir millət silah gücünə bir yerdən didərgin salınıbsa, demək, ora onun əsl torpağıdır. Bilin ki, o millətin əlindən alınan torpaqla bağlı böyük planları var". Abbas o torpaqlara bir addım yaxınlaşmaq üçün canını verdi.

2020-ci ilin avqustunda Abbas məzuniyyətə çıxır. Məzuniyyətini başa vuranda artıq ölkəmizdə hərbi təlimlərə başlanılmışdı. Nəhayət, müharibə başlayır. Digər pilot yoldaşı ilə verilən tapşırığı yerinə yetirməli idi. Lakin Xalidlə birlikdə uçacaqlarına qərar verirlər. Onların taleləri burada da birləşir. Birlikdə uçurlar, birlikdə də şəhid olurlar. Mayor Abbas Qasımov II Şəhidlər xiyabanında dəfn olunub. Rza və Hüseyin adlı iki oğul övladı Vətən əmanətidir.

Prezident İlham Əliyevin sərəncamlarına əsasən Abbas Qasımov ölümündən sonra 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni, "Qubadlının azad olunmasına görə" və

"Vətən uğrunda" medalları ilə təltif edilib. Binəqədi rayonu 6-cı mikrorayonda şəhidimizin adına küçə verilmişdir.

Şəhidin anası Kifayət Qasımovanın xatirələri insanı xəyallara daldırır: Sanki uşaqlıqdan Abbasın taleyinə Qarabağ yazılmışdı. Atası onu hələ kiçik yaşlarından qucağında Azadlıq meydanındakı mitinqlərə aparırdı. Əmiləri və atası ilə gecə yarısına kimi orada olurdu. Həmişə qışqırırdı ki, Qarabağ bizimdir. Böyüdükcə də hərbi sahəyə meyillənirdi.

...Sonuncu dəfə evə sentyabrın 25-i axşam gəldi. Uşaqlarını qucaqlayb öpdü, bizimlə görüşdü. Səhərisi günü tezdən yoldaşı onu yola saldı. Mən də pəncərədən Abbasa baxıb dua edirdim. Müharibəyə getdiyini bilmirdim. Daha doğrusu, müharibə olacağına inanmırdım. Bilsəydim, oğlumun başına fırlanardım. Ona dəyən zərbə mənə dəyəydi... Ananı istəyən oğul Vətəni də istəyərmiş. Müharibənin ilk günü döyüş yoldaşı, dostu Xalidlə birgə şəhid oldu. Ürəyim elə yanır ki, onu heç kim hiss edə bilməz. Bəzən düşünürəm ki, mənə nə olur-olsun əvəzində Abbas birgünlük yoldaşının, balalarının yanına gəlsin. Arxamı, dayağımı, sirdaşımı itirmişəm".

Şəhidin həyat yoldaşı Siddiqə xanım o günləri belə xatırlayır: "Uşaqlarına çox bağlı insan idi. İstəyirdi ki, oğlanları savadlı olsun. Hətta onlara saymağı da birinci dəfə ataları öyrətmişdi. Deyirdi, hansı peşəni seçmələrindən asılı olmayaraq, qoy öz işlərinin peşəkarı olsunlar. Oğlumuz Rzanı ilk dərs günü məktəbə özü aparmaq istəyirdi. Ancaq işi ilə əlaqədar icazə alıb gələ bilmədi. Ona oğlumun məktəbli formasında şəkillərini çəkib göndərdim. Çox sevindi, dedi, evə qayıdan kimi özü onu dərsə aparacaq. Kiçik oğlum yoxluğunu qəbul edə bilmir. Onları başa salıram ki, ata qəhrəmandır. Abbas və döyüş yoldaşı Xalidin şəhid olması ilə Ordumuz düşmənin mövqelərini aşkarlayıb məhv ediblər. Onlar şəhadətləri ilə həm də Ordumuza yol açıblar. Əsl pilotlar kimi səmada şəhid oldular. Bu cür qəhrəmanların adının yaşaması şəhid ailələri üçün təskinlikdir. Yoldaşımın əşyalarına toxunduqca, elə bilirik ki, Abbasa toxunuruq. İyini paltarlarından alırıq. Heç nə onu əvəz edə bilməz".

Xalid Həsən oğlu Gözəlov 1996-cı il noyabrın 4-də Biləsuvar rayonunun Aşağı Cürəli kəndində dünyaya göz açıb. Gözəlovlar ailəsinin üç oğul payının ortancılı idi Xalid. O, 2002-ci ildə Zaqatalada 2 saylı orta məktəbin 1-ci sinfinə gedib. Atasının işi ilə əlaqədar daha sonra təhsilini Biləsuvarda davam etdirib. 2012-ci ildə Oktay Babayev adına orta məktəbdən məzun olub.

Qardaşı Davud Xalidin mehriban, dözümlü, səbirli, təmkinli, çox vətənpərvər insan olduğunu bildirir: "Orta məktəbi bitirdikdən sonra ali məktəbə imtahan verərək, ödənişsiz əsaslarla Texniki Universitetə daxil oldu. Amma orada oxumadı, çünki istəyi hərbi sahəyə idi. Daha sonra yenidən sənədlərini Dövlət Sərhəd Xidməti Akademiyasına verərək, istəyinə çatdı. Akademiyanı bitirən kimi xüsusi bacarığına görə pilot vəzifəsinə təyin olunmuşdu. Xalid uşaqlıqdan idmanın güləş növü ilə məşğul idi. Çoxsaylı mükafatlar, medallar qazanmışdı. Çempion da olmuşdu. 2019-cu ildə baş leytenant rütbəsi almışdı. Həyatda arzuları böyük idi. Xalid nişanlı olmasa da, uzun illər sevdiyi qız var idi, evlənib ailə həyatı qurmaq istəyirdi. Amma... Onun şəhid olması bu arzuları yarımçıq qoydu. Abbasla dostluq edirdilər. Harada olsalar, bir-birindən əlaqəni üzməzdilər. Allah bütün şəhidlərimizə rəhmət eləsin".

Prezident İlham Əliyevin müvafiq sərəncamları ilə Azərbaycan Ordusunun Sərhəd Qoşunlarının baş leytenantı, hərbi pilot Xalid Gözəlov ölümündən sonra 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni, "Qubadlının azad olunmasına görə", "Vətən uğrunda" medalları ilə təltif edilib.

Ölkəmizin ərazi bütövlüyünün bərpası, doğma torpaqlarımızın düşməndən təmizlənməsi uğrunda gedən döyüşlərdə canlarını Vətən uğrunda fəda edərək xalqımıza qələbə sevincini yaşadan şəhidlərimizin ruhu əbədi olaraq yaddaşlara həkk olunub. Şəhidlik zirvəsinə ucalan vətən övladlarının mübarizliyi həm də Azərbaycan xalqının tarixində qəhrəmanlıq salnaməsidir.